UOT 94

İSRAİL ƏMİRLİ
Bakı Dövlət Universiteti Tarix fakültəsi
Asiya və Afrika ölkələri tarixi kafedrasının müəllimi
amirovisrail04@gmail.com

TÜRK XALQLARININ KÖÇƏRİLİK VƏ YARIMKÖÇƏRİ OTURAQ MƏDƏNİYYƏTİ

DOI: https://doi.org/10.36719/2708-065X/109/23-27

Türk xalqlarına məxsus olan xalqlar, ibtidai icma və icma dövründə müxtəlif əmək alətlərindən istifadə etmişlər. Buraya daş, dəri, sümük, ağac və dəmir kimi maddələri göstərmək olar. Türk xalqlarının ilkin mədəniyyəti olan köçərilik və yarımkoçəri oturaqlıq dövründə heyvandarlıqla məşğul olmuşlar. Bunun nəticəsində dünya xalqlarına məlum olan bir sıra heyvan və məişət quşları türk xalqları tərəfindən əhliləşdirilmişdir. Bu amil həm də bir sıra türk xalqlarının oturaq həyata keçməsinə də səbəb olmuşdur. Türk xalqları, köçərilik və yarımkoçərilik dövründə bir sıra mədəniyyət növlərini yaratmışdır ki, bu amil onların həyat tərzində öz əksini tapmışdır.

Açar sözlər: Yarım köçəri, türk xalqları, mədəni irs, şərq mədəniyyəti, ilkin mədəniyyət.

Giriş. Türk xalqları öz mədəni irsinə görə qədim xalqlar içərisində xüsusi yerə malikdirlər. Belə ki, onlar dünya xalqları içərisində zəngin mədəniyyət yaradan xalqlardan biri hesab olunmalıdır.

Türk xalqlarının ilkin mədəni irsi, köçərilik və yarım köçərilikdir. Belə ki, türk xalqlarını tarixi ədəbiyyatlarda köçəri deyə adlandırmışlar. Ancaq türk xalqlarının qədim mədəniyyəti yarımköçəri oturaqlaşmış mədəniyyətdir. Bu mədəniyyətə sahib olan qədim türk xalqları dövlətlər və imperiyalar qurmuş, tarixin dolaylarında öz zəngin şərq mədəniyyəti ilə tanınmışdır.

Sonrakı dövrlərdə şərq mədəniyyətinin tərkib hissəsi olan türk xalqlarının mədəni irsi qərbi və şərqi Avropada yaşayan xalqlara da təsir etmiş, eyni zamanda qarşılıqlı mədəniyyətlər bir-birlərinə inteqrasiya etmişdir (Buraya aid etmək olar geyimləri, yeməkləri, musiqi və musiqi alətlərini, rəqsləri, idman oyunlarını, məişət əşyalarını, elmi əsərləri, təhsil mübadiləsini, sözləri, texnologiyaları, dinləri və s). Bununla yanaşı türk xalqlarının mədəni irsi eyni zamanda şərq xalqlarının mədəniyyətinə də təsir etmiş, onlarla da qarşılıqlı mədəniyyətlərin inteqrasiyası baş vermişdir.

Köçərilik və yarımköçərilik, heyvanların əhliləşdirilməsi. Türk xalqları Sibirdən İraq ərazisinə qədər geniş bir arealda yaşayan xalqlardır. Heyvanların əhliləşdirilməsi türk xalqlarının köçəri həyata başlamasına səbəb oldu. Bu proses heyvanların əhliləşdirilməsi ilə məşğul olan bir çox xalqlar arasında baş vermişdir.

Nəticədə zaman keçdikcə otlaqlar və su hövzələrinin yerləri köçəri tayfalar tərəfindən öyrənilmiş, köçərilik öz yerini zamanla oturaq yarımköçəriliyə vermişdir. İsrail Əmirli məqaləsində yazır ki, hər bir türk xalqı öz regionunda mövcud olan məişət heyvanlarının irqlərini təsərüfat münasibətlərinə cəlb etmişlər. Bunun nəticəsində türk xalqları yarım köçəri oturaqlıq nəticəsində məlum ərazilərdə heyvandarlıqla məşğul olmuşlar. Bununla yanaşı köçəriliklə məşğul olan türk tayfaları da mövcudluğunu davam etdirmişdir (1, s.69).

Türk xalqlarının əmək alətləri.

Daş əmək alətləri. Bu əmək alətlərinin istifadəsi daş dövründən başlamış, XIX-XX əsrlərə qədər istifadə olunmuşdur. Bunlardan çaxmaq daşları, daş heyvan sulama yalaqları, daş buğda üyüdən kirkirələr, buğda döyən daş vəllər, daş dən üyüdən dəyirmanlar və s. göstərmək olar.

Dəri əmək alətləri. Minik və məişət heyvanlarının müxtəlif irqlərinin əhliləşdirilməsi türk xalqlarının yeni əmək alətlərindən istifadəsinə səbəb olmuşdur. Dəri əmək alətlərinə - yəhərlər, şallaqlar, üzəngilər, cilov, çantalar, xurcunlar heyvandarlığın inkişafı ilə əlaqədar dəri motal pendiri tuluqları, süd sağmaq üçün dəri tuluqlar, dəri su tuluqları, məişətdə istifadə olunan keçə çadırlar, dəri iplər və s. aid etmək olar.

Sümük əmək alətləri. İcma dövründə istifadə olunan əmək alətlərinə sümük alətlərini də aid etmək olar. Buraya kəsici sümük əmək alətləri, deşici sümük əmək alətləri (bizlər, iynələr, balıq tutmaq üçün qarmaqlar və s.), sümük bıçaqlar, sümük qollu silahlar, sümük heyvan daraqları, sümük məişət alətləri və s. göstərmək olar.

Ağac əmək alətləri. Türk xalqlarının ilk istifadə etdiyi əmək alətlərindən biri də ağac əmək alətləridir. Buraya sivri daş uclu ağac oxlar, sivri daş uclu ağac nizələr, taxta çəkiclər, ot yığmaq üçün yavalar, ot daramaq üçün dırmıqlar, heyvanları tumaq üçün ağac qarmaqlar, ağac çalğılar, ağac xışlar, taxta vəllər, yağ əldə etmək üçün nehrələr, ip əyirmək üçün cəhrə və s. daxildir.

Dəmir əmək alətləri. Türk xalqlarının istifadə etdiyi əmək alətlərindən biridə dəmir alətlərdir. Buraya silah düzəltmək üçün dəmir körüklər, sobalar, baltalar, və çəkiclər, bıçaqlar, qayçılar, dəmir oraqlar, dəmir kərəntilər, qoyun yunu qırxmaq üçün qayçılar və s. daxil etmək olar.

Bu cür əmək alətlərinin olması, ibtidai icma və icma dövründə əmək alətlərinə görə dövrləşmənin də şərti xarakterli olmasından xəbər verir.

Hikmət Babaoğlu öz məqaləsində yazır, Dünyanın ən qədim mədəniyyəti köç mədəniyyətidir. Köç mədəniyyəti çadır mədəniyyəti və çadır arxitekturası ilə birlikdə bəşər sivilizasiyasının dan yeri kimi xarakterizə edilməlidir (4).

Məişət əşyaları. Türk xalqlarının ilk mədəniyyəti olan köçərilik və yarımköçəri oturaqlıq dövründə müxtəlif məişət əşyalarından istifadə etmişlər. Buraya aid etmək olar, süd, su və şərab qədəhləri və kovaları, saxsı yemək qabları, dəmir və mis yemək qabları, taxta yemək qabları, taxta masalar, dəri və yun yataq dəstləri və s. göstərmək olar.

Yaratdıqları dinlər. Türk xalqlarının ilk mədəniyyəti olan köçərilik və yarımköçəri oturaqlıq dövründə animizm, tanrıçılıq, totemizm kimi inanc növlərinə sitayiş etmişlər. Animizm ruhlara inam dinidir. Bir sıra türk xalqlarında qəbilə və tayfaların sitayiş dini olmuşdur. Müasir günlərə qədər bəzi türk xalqları arasında mövcudluğunu qoruyub saxlamışdır. İsrail Əmirli məqalədə göstərir ki, türk xalqlarının ibtidai görüşləri animistik düşüncə tərzindən irəli gələn görüşlərdir və kainatın, o cümlədən canlı varlığın var olma səbəbidir (2).

Türklərin sitayiş etdiyi digər bir din tanrıçılıq dinidir. Tək tanrıya sitayişin bir formasıdır. Əsasən sak və massaget tayfalarının sitayiş dini olmuşdur. İndi də bəzi türk xalqları bu dinə inanırlar.

Totemizm Oğuz türklərinin bir sıra tayfalarının dini olmuşdur. Əsasən heyvandarlıqla əlaqədar meydana çıxmışdır.

Bayramlar. Türk xalqlarının bayramlarını milli, dini, dünyəvi növlərə bölmək olar. Türk xalqlarının icma dövründə yaranmış bayramları qəbilə və tayfaların dünyagörüşləri ilə əlaqədar idi. Buraya əsasən animizmlə əlaqədar yaranan milli bayram olan Bahar bayramını aid etmək olar. İsrail Əmirli məqalədə göstərir ki, türk xalqları bu bayram vasitəsilə təbiətdə var olan suyun, odun, torpağın, küləyin müqəddəsliyini qeyd edirlər. Dini bayramları isə Qurbanlıq və Orucluqdur ki, onlar da islamdan əvvəl yaranıb və dəqiq tarixləri məlum deyil (2). Qurbanlıq bayramı İbrahim peyğəmbərin İsmayılı qurban kəsməməsi ilə əlaqədar yaranan bayramdır. Bu dövrdən başlayaraq insanlar insanların qurban vermə adətindən əl çəkmiş, heyvanları qurban vermişlər.

Orucluq bayramı isə tək allaha inanan bir sıra dinlər də mövcuddur. Türk xalqlarının icma dövründə dünyəvi bayramları olmayıb.

İdman oyunları. Türk xalqlarının ilk mədəniyyəti olan köçərilik və yarımköçəri oturaqlıq dövründə çövkan, milli güləş, qılınc oynatma, ox və kamandan atış və s idman oyunları olmuşdur. Çövkan oyunu heyvandarlığın inkişafı ilə əlaqədar yaranmışdır. Müasir günlərə qədər gəlib çatmışdır. Döyüş sənətinin inkişafı ilə əlaqədar isə milli güləş, qılınc oynatma, ox və kamandan atış idman növləri meydana çıxmışdır. Məqalədə məlumat verilir ki, V Dünya Köçəri Oyunlarında ümumilikdə 21 idman növü üzrə yarışlar keçirilir (5).

Yemək bişirmə mədəniyyəti. Türk xalqları əsasən əkinçilik və heyvandarlıq, ovçuluq, yığıcılıqla məşğul olduqları üçün yemək növləri də buna əsasən qurulmuşdur. Yeməklərində əsasən ət yeməkləri üstünlük təşkil etmişdir. Bununla bərabər ət və tərəvəz meyvələrinin qarışığından ibarət yeməklər də üstünlük təşkil etmişdir. Eyni zamanda yeməklərində süd yeməkləri də üstünlük təşkil etmişdir ki, buraya da qatıqların hazırlanması, qrut, pendirlərin hazırlanması, spirtli süd-kumız və digər süd məhsullarının hazırlanması daxildir və s.

Sənətkarlıq. Türk xalqlarında köçərilik və yarım köçərilik dövründə sənətkarlığın müxtəlif növləri inkişaf etmişdir. Bunlar çox çeşidliliyinə görə fərqlənir dəri aşılama, dəri, daş, taxta, dəmir, sümük əmək alətilərinin, silahların, zərgərlik məhsullarının, toxuculuq məhsularının (keçə. gəvə, kilim, geyimlər və s.), musiqi alətlərinin hazırlanması, şərabların hazırlanması, süd məhsullarının hazırlanması, silahların hazırlanması, məişət əşyalarının hazırlanması, bəzək əşyalarının hazırlanması və s.

Rəsm. Türk xalqlarının bu mədəniyyət növünə köçərilik və yarım köçərilik dövründə daş qayalar üzərində çəkilən rəsmlər daxildir. Məqalədə məlumat verilir ki, Qobustan dağlarında Böyükdaş, Kiçikdaş, Cingirdağ, Şonqardağ və Şıxqaya ərazilərində Daş dövrü və sonrakı dövrlərdə yaşayan insanların həyatına və təsvirlərinə aid sübutlar müəyyən edilib (6).

Musiqi alətləri - qopuz, qaval, zurna, qamışdan tütək, kamança, ud və s.

Rəqs mədəniyyəti. Türk xalqlarının rəqsləri, ümumitürk mədəniyyətinin bir parçasıdır və özünəməxsusluğu ilə seçilir. Yəni türk xalqlarının hamısı eyni cür rəqs edir. Türk xalqlarının mədəniyyəti ümumtürk mədəniyyətinin bir hissəsi olmaqla həm də regionlarında mövcud olan xalqlarla da inteqrasiya etmişdir. Misal üçün Qafqaz xalqlarının hamısı eyni cür rəqs edir. Bu rəqslər bir-birlərindən çox az fərqlənir. Burada əsasən qol və ayaq rəqsləri üstünlük təşkil edir. Yallılar isə türk xalqlarının ümumilikdə həyata keçirdikləri rəqs növüdür. Bu rəqslər türk xalqlarında köçərilik və yarım köçərilik dövründən başlamış müasir günlərimizə qədər gəlib çatmışdır. Bunu qayalar üzərindəki rəsmlər sübut edir. Məqalədə məlumat verilri ki, "Yallı rəqsi (Köçəri, Tənzərə) Naxçıvanın ənənəvi qrup rəqsləri"nin UNESCO-nun Bəşəriyyətin qeyri-maddi mədəni irs siyahısına daxil edilib (7).

Pulları. Türk xalqları köçərilik və yarımköçərilik dövründə qurduqları dövlət qurumlarında tədavül vasitəsi kimi dəmir, mis, gümüş, qızıl pullardan istifadə etmişdir. İcma dövründə olan yarım köçəri türk xalqlarında isə tədavül vasitəsi kimi məhsul mübadiləsi olmuşdur.

XX əsrin 20 ci illərinə qədər türk xalqları mis, gümüş, qızıl pullardan istifadə etmişdir.

Şəhərlər və kəntlərin salınması. Heyvanların və quşların əhliləşdirilməsi türk xalqlarının oturaq həyata keçməsinə səbəb olmuşdur. Çünki heyvanları quşları bəsləmək soyuqdan və istidən qorumaq üçün damlar lazım idi. Bunun nəticəsində bir sıra türk xalqları oturaq həyata keçmiş, heyvandarlığı inkişaf etdirən bir sıra türk tayfaları isə köçəri və yarım köçəri heyvandarlığı davam etdirmişdir. Bunun nəticəsində feodalizm dövründə də köçəri və yarımköçəri heyvandarlıqla məşğul olan türk tayfaları mövcud olmuşdur.

Şəhərlər və kəndlərin salınması nəticəsində türk xalqları arasında heyvanların bəslənməsi aradan qalxmamış bu günlərə qədər müxtəlif türk xalqları arasında bu əmək münasibətləri kəntlərdə davam etmişdir. (Bu heyvanlar içərisində yerli irqlər üstünlük təşkil etmişdir.) Məqalədə məlumat verilir ki, paleolit dövrü də daxil olmaqla, mezolit dövründən başlayaraq qəbilə və tayfaların oturaqlaşma, köçəri və yarımköçəri həyat tərzində yerdəyişmə prosesləri eneolit dövrü də daxil olmaqla sonrakı dövrlərdə də davam etmişdir (3). Çünki türk xalqları da daxil olmaqla əksər xalqlar öz qida məhsullarını əkinçilik və heyvandarlıq məhsullarından əldə etməkdədirlər.

Müasir ümumtürk mədəniyyəti. Müasir ümumtürk mədəniyyəti dünya mədəni irsinin bir hissəsi olmaqla inkişaf etməkdədir. Türk xalqlarının mədəni irsi özünəməxsus olmaqla Asiya və Afrikanın və Avropa, Ameikanın ən zəngin dəyərlərini özündə əks etdirir.

Qədim və zəngin mədəni dəyərlərə malik olan türk xalqlarının müasir mədəni irsi dünya mədəniyyətinə öz töhfələrini verməkdədir. Zəngin mədəni irs üzərində dayanan türk xalqları özünün qədim mədəni irsi ilə öyünməyə haqqı çatır.

Bəzən bunu gözləri götürməyən xalqlar, zəngin türk xalqlarının mədəni irsini görməməzlikdən gəlmişlər. Onları geridə qalmış köçəri barbar xalqlar adlandırmışlar. Ancaq türk xalqları həm dünya, həm şərq, həm də qərb mədəniyyətinə zəngin töhfələr vermişdir. Bu həm icma dövründə, həm feodalizm dövründə, həm də müasir günlərdə davam etməkdədir. Türk xalqlarının şairlərinin, musiqiçilərinin, rəssamlarının, memarlarının, elm və təhsil adamlarının, eləcədə digər mədəniyyət işçilərinin fəaliyyəti dünya xalqları tərəfindən bu gün də rəğbətlə qarşılanır.

Həm də zəngin türk xalqlarının mədəni irsinin bir hissəsi beynəlxalq təşkilatlar tərəfindən dəyərləndirilir və qorunur.

Nəticə. Məqalə tam təhlil məqaləsidir. Ona görə də məqalədə türk xalqlarının ümumi mədəniyyəti təhlil olunmuş, elmi metodlardan istifadə olunmuş, yeni tarixi kəşflər elmi dövriyyəyə cəlb edilmişdir.

Məqalədə köçərilik və yarımköçərilik, heyvanların əhliləşdirilməsi, türk xalqlarının əmək alətləri, məişət əşyaları, yaratdıqları dinlər, bayramlar, idman oyunları, yemək bişirmə mədəniyyəti, sənətkarlıq, rəsm, musiqi alətləri, pulları, şəhərlər və kəntlərin salınması, müasir ümumtürk mədəniyyəti də daxil olmaqla, köçərilik və yarımköçəri oturaq ümumtürk ilkin mədəniyyətinin bir hissəsi işıqlandırılmışdır.

ƏDƏBİYYAT

1. Əmirli İ.C. Azərbaycan türklərinin yerli heyvan irqlərini əhliləşdirmə tarixi // Elmi Xəbərlər jurnalı fundamental, humanitar və təbiət elmləri seriyası № 2, Gəncə, 2024.
2. Əmirli İ.C. Novruz türk xalqlarının milli bayramıdır. - http://static.bsu.az/w16/Novruz%20bayramı.pdf [02.02.2025].
3. Əmirli İ.C. Şəhərlər və kəndlər qəbilə və tayfaların dağılmasına səbəb olur. - http://static.bsu.az/w16/Q%C9%99bil%C9%99%20v%C9%99%20tayfalar.pdf [02.02.2025].
4. Hikmət Babaoğlu, Köç mədəniyyəti bəşər sivilizasiyasının dan yeridir**,** İki sahil qəzeti 27 mart 2025. - https://ikisahil.az/post/koch-medeniyyeti-besher-sivilizasiyasinin-dan-yeridir [02.02.2025].
5. V Dünya Köçəri Oyunları – idmandan mədəni irsə. - https://medeniyyet.info.az/page/news/75610/V-Dunya-Koceri-Oyunlari-%E2%80%93-idmandan-medeni-irse.html [02.02.2025].
6. AZƏRTAC Qobustanın qayaüstü təsvirləri. - https://az.baku-art.com/az/qobustanin-qayaustu-tesvirleri [02.02.2025].
7. AZƏRTAC, Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri"nin UNESCO-nun Reprezentativ Siyahısına daxil edilməsi haqqında sertifikatın təqdimatı olub. - https://respublika-news.az/az [02.02.2025].

ИСРАИЛ АМИРЛИ
Преподаватель Бакинского государственного университета

КОЧЕВАЯ И ПОЛУКОЧЕВАЯ ОСЕДЛАЯ КУЛЬТУРА ТЮРКСКИХ НАРОДОВ

Тюркские народы занимают особое место среди древних народов благодаря своему культурному наследию. А значит, их следует считать одним из народов, создавших богатую культуру среди народов мира.

Основным культурным наследием тюркских народов является кочевничество и полукочевство. Так, тюркские народы в исторической литературе назывались кочевниками. Однако древняя культура тюркских народов представляет собой полукочевую оседлую культуру. Древние тюркские народы, обладавшие этой культурой, строили государства и империи и на протяжении всей истории были известны своей богатой восточной культурой. В более позднее время культурное наследие тюркских народов, являющееся частью восточной культуры, оказало влияние на народы, проживающие в Западной и Восточной Европе, и в то же время взаимные культуры интегрировались друг в друга. (Сюда входит одежда, продукты питания, музыка и музыкальные инструменты, танцы, спортивные игры, предметы быта, образование, наука, слова, технологии, религии и т.д.).

В то же время культурное наследие тюркских народов оказало влияние и на культуру восточных народов, с ними произошла интеграция взаимных культур.

Ключевые слова: Полукочевые, тюркские народы, культурное наследие, восточная культура, первобытная культура.

ISRAIL AMIRLI
Lecturer of Baku State University

NOMADIC AND SEMI-NOMADIC SEDENTARY CULTURE OF TURKIC PEOPLES

Turkic peoples occupy a special place among ancient peoples thanks to their cultural heritage. And therefore, they should be considered one of the nations that created a rich culture among the nations of the world.

The main cultural heritage of Turkic peoples is nomadism and semi-nomadism. Thus, Turkic peoples were called nomads in historical literature. However, the ancient culture of the Turkic peoples is a semi-nomadic and sedentary culture. The ancient Turkic peoples, who possessed this culture, built states and empires and throughout history were known for their rich eastern culture. In later times, the cultural heritage of the Turkic peoples, which is part of the eastern culture, influenced the peoples living in Western and Eastern Europe, and at the same time, mutual cultures integrated into each other. (This includes clothing, food, music and musical instruments, dances, sports games, household items, education, science, the words, technology, religions, etc.).

At the same time, the cultural heritage of the Turkic peoples also influenced the culture of the eastern peoples, and the integration of mutual cultures took place with them.

Keywords: Semi-nomadic, Turkic peoples, cultural heritage, oriental culture, primitive culture.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 02 fevral 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 may 2025-ci il.
Rəyçilər: t.ü.f.d. İqbal Ağayev, t.e.d. İsmayıl Məmmədov.